Təhsil nazirinin mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2014-cü ilin aprel ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, İsmayıllı, Şamaxı, Ağsu, Qobustan rayonlarında yaşayan vətəndaşları qəbulu ilə bağlı İsmayıllı şəhərinə səfəri çərçivəsində keçirilmiş görüşdə evdə fərdi təhsil alan şagirdlərin valideynləri, müəllimlər və distant təhsil üzrə mütəxəssislər də iştirak ediblər.

Təhsil naziri Mikayıl Cabbarov distant təhsilin inkişaf etdirilməsi və sağlamlıq imkanları məhdud, xüsusi qayğıya ehtiyacı olan şagirdlərin bu prosesə cəlb olunması məsələsinin prioritet istiqamətlərdən biri olduğunu bildirib. Təhsil Nazirliyi tərəfindən bu sahədə həyata keçirilən tədbirlərin əhəmiyyətinə toxunan nazir İsmayıllı rayonunda məsafədən təhsil layihəsinin uğurla icra edilməsini təqdirəlayiq hal kimi dəyərləndirib.

Nazir qeyd edib ki, məsafədən təhsilin əsas məqsədi evdə təhsil alan, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasına dəstək vermək, onların təhsil almaq imkanlarını yaxşılaşdırmaq, kompüterdən və elektron resurslardan istifadə bacarıqlarını artırmaqdan ibarətdir.

Distant təhsil üzrə mütəxəssis Maral Vəliyeva evdə təhsilin təşkili ilə bağlı təqdimat-məruzə ilə çıxış edib.

Valideyn Bayram Rzayev sağlamlıq imkanları məhdud, xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün evdə təhsilin təşkili istiqamətində Təhsil Nazirliyinin apardığı məqsədyönlü tədbirlərə görə minnətdarlığını bildirib.